# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EMBAFİNANS"

# QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1 500 (bir min beş yüz) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların*

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**15 Mart 2021-ci il**

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. BOKT "EMBAFİNANS" QSC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 1 500 (bir min beş yüz) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən məlumatların rəsmi sənədlərdə əks olunan həqiqi faktlar əsasında, heç bir təhrifə yol vermədən və hər hansı bir təhrifin qarşısının alınması üçün bütün zəruri tədbirlərin görüldüyünə təminat verir, həmçinin məsuliyyəti öz üzərimizə götürürük.

**BOKT "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin Sədri:**

**İsgəndərov Samir Xangiz oğlu** ____________________

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EMBAFİNANS" CLOSED JOINT STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**BOKT "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyətinin Baş Maliyyə meneceri:**

**Kazımov Elnur Nəcəf oğlu** ____________________

# MÜNDARİCAT

XÜLASƏ....................................................................................................4

I. İstiqrazların Emitenti barədə məlumat.........................................................10

II. İstiqrazlar barədə məlumat..........................................................................18

III. Təklifin şərtləri.........................................................................................21

IV. Ticarətə buraxılma və onun tənzimlənməsi..................................................23

**Bakı-2021**

# XÜLASƏ

## ● Xəbərdarlıq

• Bu sənəd Emissiya prospektinin giriş hissəsidir;

• İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

• Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 1. Emitent haqqında məlumat

1.1. **Emitentin tam adı:** Bank Olmayan Kredit Təşkilatı “EMBAFİNANS” Qapalı Səhmdar Cəmiyyəti.
1.2. **Emitentin qısaldılmış adı**: BOKT “EMBAFİNANS” QSC.
1.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: 1302932691, 25.06.2012-ci il.
1.4. **Emitentin olduğu yer və emitentin qeydiyyatda olduğu ölkə**: Azərbaycan Respublikası, AZ 1138, Bakı şəhəri Yasamal rayonu, General Akim Abbasov küç.,73E

2. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

BOKT “Embafinans” QSC əsasən riteyl və mikro biznes kredit bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar BOKT “Embafinans” QSC-də qənaətbəxş idarə olunur. Belə ki təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır. Kredit portfelinin 30 gündən çox gecikmə nisbəti göstəricisi 11% ətrafında idarə olunur.

BOKT “Embafinans” QSC, strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir. Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir.

3. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**
   Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.
4. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.
5. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

Kənar audit rəyinə əsasən, BOKT "Embafinans" QSC-nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

6. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 706 858 | 2 302 565 | 4 149 000 |
| **Cəmi öhdəliklər** | 9 191 654 | 15 463 333 | 26 149 575 |
| **Cəmi kapital** | 12 846 456 | 14 181 396 | 15 933 221 |
| **Cəmi aktivlər** | 22 038 110 | 29 644 729 | 42 082 796 |
| **Kredit portfeli** | 15 516 813 | 23 434 041 | 34 988 897 |
| **Pul vəsaitləri** | 170 848 | 194 567 | 229 976 |

**2020-cu il maliyyə hesabatları auditor tərəfindən təstiq olunmadığı üçün, yalnız 6 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:**

| Göstəricilər | 2019 (6 ay) | 2020 (6 ay) |
|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 1 909 805 | 2 392 866 |
| **Cəmi öhdəliklər** | 24 168 302 | 22 507 798 |

| | | |
|---|---|---|
| **Cəmi kapital** | 15 090 038 | 16 092 202 |
| **Cəmi aktivlər** | 39 258 339 | 38 600 000 |
| **Kredit portfeli** | 32 443 266 | 32 218 380 |
| **Pul vəsaitləri** | 305 420 | 165 990 |

## 7. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:

Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə *30* gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 31.12.2017 | 31.12.2018 | 31.12.2019 |
|---|---|---|---|
| **PAR>30 (məbləğ)** | 801 725,39 | 980 336,71 | 1 316 104,20 |
| **PAR>30/Portfel(%)** | 4,9% | 4,1% | 3,5% |

## 8. Emitentin əsas fəaliyyətlərinin təsviri:

BOKT "EMBAFİNANS" QSC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "EMBAFİNANS" QSC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;

- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**9. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xususiyyətləri:**

Müəssisənin nizamnamə kapitalı 51 (əlli bir) %, 35 (otuz beş) % və 14 (on dörd) % payla 3 şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır.

## 10. Qiymətli kağızlar haqqında məlumat

a. **İstiqrazların növü:** faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar;
b. **İstiqrazların valyutası:** AZN;
c. **Tədavül müddəti:** 1 il;
**d. İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Mövcud deyil.
**e. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 10.5 (on tam onda beş) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**f. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 10.5 % təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 1 (bir) təqvim ayından bir ödənilir.

g. **İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların geri satın alınması nəzərdə tutulmur.

h. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

Burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri 1 000 (bir min) AZN;

D – İstiqrazların illik gəlirlik dərəcəsi 10.5 (on tam onda beş) %;

G –İstiqrazların ödəniş dövrünün müddəti hər ay (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə)

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 8.75 (səkkiz manat yetmiş beş qəpik) AZN təşkil edir.

i. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

# 11. Risk faktorları

**a. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski - daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.
-

**b. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları**

- Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

# 12. Təklif

**12.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi;**

Emissiyadan əldə ediləcək vəsait şirkətin gələcək fəaliyyətinin dəstəklənməsində, o cümlədən şirkətin kredit portfelinin dinamik inkişafında istifadə ediləcəkdir.

**12.2. Təklifin şərtlərinin təsviri;**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən Azərbaycan Beynəlxalq Bank ASC-də açılmış hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.embafinans.az) açıqlanır

**12.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat;**

Emissiyada iştirak edən şəxslər arasında maraqlar münaqişəsi mövcud deyil. Emissiyada emitendə aidiyyəti olan və digər əlaqəli şəxslər iştirak etmir.

**12.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

İstiqraz alıcısı tərəfindən istiqrazların alınması ilə bağlı vergilərin ödənilməsi nəzərdə tutulmayıb.

Fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək faiz ödənişləri üzrə ödəmə mənbəyindən vergidən azaddırlar. Hüquqi şəxslər isə hər faiz ödənişi tarixində faiz ödənişinin 10%-i həcmində ödəmə mənbəyindən vergi tutulmaqla öz faizlərini alacaqlar. İstiqrazların dövriyyədə olduğu müddətdə müvafiq qanunvericilik dəyişərsə tətbiq ediləcək vergitutma prosesi emitent və anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorlara ötürüləcəkdir.

İstiqraz alıcısının ödəməli olduğu xərclər investisiya şirkəti ilə bağlanmış müqaviləyə əsasən həyata keçirilir.

- əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- "depo" hesab açılması üçün 10 AZN;
- Hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

# I. İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 1. Emitentin auditorları barədə məlumat

**Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2017** | Praysvoterhaus Kupers Audit Azərbaycan MMC | Bakı şəh. Nizami küç. 90A, Landmark Biznes Mərkəzi | Mövcud deyil |
| **2018** | Praysvoterhaus Kupers Audit Azərbaycan MMC | Bakı şəh. Nizami küç. 90A, Landmark Biznes Mərkəzi | Mövcud deyil |
| **2019** | Praysvoterhaus Kupers Audit Azərbaycan MMC | Bakı şəh. Nizami küç. 90A, Landmark Biznes Mərkəzi | Mövcud deyil |

## 2. Seçilmiş maliyyə məlumatı

**(Azərbaycan Manatı ilə)**

| Son üç maliyyə ili | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Xalis əməliyyat gəliri** | 3 779 220 | 5 442 934 | 7 300 330 |
| **İnzibati və sair əməliyyat xərcləri** | 3 072 362 | 3 140 369 | 3 151 330 |
| **Mənfəət /Zərər (vergidən əvvəl)** | 706 858 | 2 302 565 | 4 149 000 |

## 3. Emitent barədə məlumat

**3.1.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** Bank Olmayan Kredit Təşkilatı “EMBAFİNANS” Qapalı Səhmdar Cəmiyyəti

**3.1.2. Emitentin dövlət qeydiyyatının məlumatı:** 25.06.2012-ci il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 1302932691

**3.1.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitentin təşkilati-hüquqi formasında dəyişiklik baş vermişdir. Belə ki emitent 10.12.2019 tarixli dövlət qeydiyyatı ilə Məhdud Məsuliyyətli Cəmiyyət formasından Qapalı Səhmdar Cəmiyyət təşkilati-hüquqi formasına keçmişdir.

**3.1.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvanı: Az 1138, Bakı şəhəri Yasamal rayonu, General Akim Abbasov küç.,73E
Faktiki ünvanı: Az 1138, Bakı şəhəri Yasamal rayonu, General Akim Abbasov küç.,73E

Telefon: (+994 12) 434 78 62/63
İnternet səhifəsi: www.embafinans.az
Elektron poçt ünvanı: info@embafinans.az

**3.1.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarın əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil

**İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**3.1.6. Emitentin qiymətli kağzlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**
Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.
Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

# 4. Emitentin biznesinin icmalı

**4.1.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

BOKT "EMBAFİNANS" QSC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "EMBAFİNANS" QSC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:
- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;

- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**4.1.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:**
Mövcud deyil.

**4.1.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Təşkilat riteyl və mikro biznes kredit bazarında rəqabət aparır.

**4.1.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:** BOKT "Embafinans" QSC, riteyl və mikro bzines kredit bazarında lider mövqelərdən birini tutur. Belə ki, təşkilat fəaliyyətə başladığı 2012-ci ildən bəri 300 mln. AZN-dən çox kredit vermişdir ki, verilmiş kreditin cəmi 1.1% hissəsi gecikmiş kredit statusu almışdır.

## 5. Digər təşkilatlarda iştirak

**5.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** BOKT "Embafinans" QSC-nin heç bir hüquqi şəxsdə iştirakı mövcud deyildir.

**5.2. Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:**

Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 6. Tendensiyalar barədə məlumat

**6.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin Emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində Emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**6.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

## 7. Gəlir proqnozu

**7.1.** **Emitent öz mülahizəsinə əsasən Emissiya prospektinə, bu prospektin 7.2-7.5-ci bəndlərinin tələblərinə uyğun, gəlir proqnozu barədə məlumatı Emissiya prospektinə əlavə edir :**

| 2021 | 2022 |
|---|---|
| 9 908 981.00 AZN | 12 446 326.00 AZN |

.

## 8. Emitentin idarəetmə və nəzarət orqanları

**8.1.** **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Emitentin Müşahidə Şurası barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Şahbazova Mədinə Məşhur qızı | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Mikayılov Malik Ağaməmməd oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

**Emitentin İdarə Heyəti barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| | | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla |

| | | |
|---|---|---|
| İsgəndərov Samir Xangiz oğlu | İdarə Heyətinin sədri | qadağan edilməyən əqd və sazişlər bağlayır, Təşkilatın fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |
| Kazımov Elnur Nəcəf oğlu | Baş maliyyə meneceri, İH üzvü | Təşkilatın Mühasibat uçotu və hesabatlıq sistemini beynəlxalq standartlara uyğun təşkil edir və hesabatlığın şəffaf şəkildə tərtibini təmin edir; Maliyyə planı və büdcə planını hazırlayır və icrasına nəzarət edir; Maliyyə təhlilini təşkil edir; Təşkilatın mənfəətlik və likvidlik mövqeyini nəzarətdə saxlayır və s. |
| Vəliyev İlkin Süleyman oğlu | Problemli kreditlərin idarəedilməsi şöbəsinin müdiri, İH üzvü | Təşkilartın gecikmiş kreditlərinin mərhələli şəkildə idarə olunmasını təşkil edir; Problemli kredit müştəriləri ilə məhkəmə işlərini nəzarətdə saxlayır və s. |
| Şahbazov Məntiq Məşhur oğlu | İdarə Heyətinin sədrinin müavini, İH üzvü | Təşkilatın biznes hədəflərinin yerinə yetirilməsi zamanı Risk mövqeyinin qorunub saxlanmasını təmin edir; Risklərə cari nəzarəti həyata keçirir və s. |
| Bağırov Cavid Nadir oğlu | İdarə Heyətinin sədrinin müavini, İH üzvü | Təşkilatın kredit siyasətinin həyata keçirilməsini təşkil edir; Kredit mütəxəssisləri tərəfindən verilən kreditlərin təşkilatın təstiq etdiyi Kredit şərtlərinə və limitlərə uyğunluğuna nəzarət edir; Sağlam portfel formalaşdırılmasını təmin edir və s. |

**8.1.1. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Mövcud deyildir.

## 9. İdarə heyətinin işgüzar praktikası

**9.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

**Emitentin Audit Komitəsi barədə məlumat:**

| Komitələr | Üzvləri | Funksiyaları |
|---|---|---|
| Kredit komitəsi | Bağırov Cavid Nadir oğlu<br>Qədimquliyev İmam Eyyub oğlu<br>Cabbarov Xaqani Yahuzər oğlu | Təşkilatın kredit siyasətinin və kreditləşməyə dair qaydaların hazırlanmasını və onların mütəmadi təkmilləşdirilməsini təşkil etmək; kredit portfelini mütəmadi təhlil etmək, kreditvermə səlahiyyətləri, kredit portfelinin diversifikasiya meyarları və limitləri üzrə təkliflər vermək; Kredit portfelinin keyfiyyəti üzərində davamlı iş aparmaq və s. |
| Risklərin İdarə edilməsi komitəsi | Kazımov Elnur Nəcəf oğlu<br>Vəliyev İlkin Süleyman oğlu<br>Qədimquliyev İmam Eyyub oğlu | Təşkilatın risk mövqeyini nəzarətdə saxlamaq; Portfeli daima analiz edərək, riskləri minimumlaşdırmaq məqsədilə, limitlər qoymaq, diversifikasiya tədbirləri həyata keçirtmək; risk nöqtələrinə monitorinqlər təşkil etmək və nəticələrini analiz etmək; Risk hesabatlığını təşkil etmək və s. |
| İT komitəsi | İsgəndərov Samir Xangiz oğlu<br>Bayramov Ömər Xosrov oğlu<br>Mirzəyev Fərid Akif oğlu<br>Əliyev Ramiz Bayram<br>Xələfov Rauf Məhərrəm<br>İsmayılov Əli Camal oğlu | Təşkilatın İnformasiya texnologiyaları ilə bağlı vəziyyətini nəzarətdə saxlamaq; Innovativ IT həllərinin təşkilatda tətbiqini təmin etmək; İT prosedurlarını təstiq etmək; Şəbəkə idarəetməsini nəzarətdə saxlamaq; Məlumat təhlükəsizliyini təmin etmək; IT ilə bağlı Fövqəladə hal Planını tərtib və təstiq etmək və s. |
| | Kazımov Elnur Nəcəf oğlu<br>Axundov Əliəsgər Məsi oğlu | Təşkilatda satınalma işini təşkil etmək; Satınalma prosedurunu hazırlamaq və həyata keçirtmək; |

| | | |
|---|---|---|
| Satınalma komissiyası | Bayramov Ömər Xosrov oğlu | Əhəmiyyətli satınalmalarla bağlı tenderlər keçirtmək; Satınalmalarla bağlı bazar qiymətlərini nəzarətdə saxlamaq və s. |
| İşə qəbul komissiyası | Qədimquliyev İmam Eyyub oğlu<br>Əliyev Şamxal Məzahir oğlu<br>Axundov Əliəsgər Məsi oğlu | Təşkilatın işəqəbul qaydalarını hazırlamaq; İşəqəbul mərhələlərini müəyyən etmək; işə müraciət edən şəxslərlə müsahibələr keçirtmək, müsahibə nəticələrinə dair qərarlar vermək və s. |
| Daxili Audit xidməti | Hüseynov Zaur Hüseyn oğlu | Təşkilatın illik Audit Planını hazırlamaq; Audit planına əsasən audit prosesini həyata keçirtmək; Audit nəticələrinə uyğun hazırlanmış Tədbirlər planının icrasına nəzarət etmək və s. |

9.2. **Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 10. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

10.1. **Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kpitalında faiz nisbəti |
|---|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | Azərbaycan Respublikası | 5 100 | 51 % |
| Məmmədov Məşhur Şahbaz oğlu | Azərbaycan Respublikası | 3 500 | 35 % |
| Polyakova Tamara Başirovna | Rusiya Federasiyası | 1 400 | 14 % |

**10.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Şirkətdə korporativ idarəetmə və daxili nəzarət mexanizmləri qurulmuşdur. Şirkətin fəaliyyəti lisenziyalı fəaliyyət olduğu üçün bir başa Mərkəzi Bankın tənzimləmə obyektidir. Şirkət qanunvericiliyin tələblərinə uyğun proses, prosedur, qaydalar toplusu və korporativ idarəetməyə malikdir. Dünyanın böyük dördlüyünə daxil olan audit şirkətləri tərəfindən audit olunur. Şirkətin payçılarının şirkətdən birbaşa iqtisadi marağı əldə olunmuş mənfəətin dividend şəklində götürülməsi və ya şirkətin inkişafına yönləndirilməklə potensialının və dəyərinin artırılmasıdır. İstiqrazlar üzrə öhdəliklər istənilən halda payçıların tələblərindən öncə ödənilməlidir. İstiqraz sahibləri şirkətin təqdim edəcəyi altı aylıq və illik maliyyə hesabatları vasitəsilə şirkətin mənfəətinin artıb azalmasına, dividend ödənişlərinə və nizamnamə kapitalının artıb azaldılmasına nəzarət etməklə müvafiq nəzarətin sui-istifadə edilmədiyindən əmin ola bilərlər.

**10.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 11. Emitentin maliyyə məlumatları

**11.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları;** Emissiya prospektinə əlavə edilir;

**11.2. Maliyyə hesabatları beynəlxalq mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanmışdır və aşağıdakıları özündə əks etdirməklə emissiya prospektinə əlavə edilir**:

**11.2.1. maliyyə vəziyyəti haqqında hesabatı**: Emissiya prospektinə əlavə edilir;

**11.2.2. mənfəət və zərər haqqında hesabatı**: Emissiya prospektinə əlavə edilir;

**11.2.3. kapitalda dəyişiklik haqqında hesabatı**: Emissiya prospektinə əlavə edilir;

**11.2.4. nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabatı**: Emissiya prospektinə əlavə edilir;

**11.3. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Yoxdur;

**11.4. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) :** BOKT "Embafinans" QSC-yə 05.02.2018-ci il tarixindən "Şəffaf vergi ödəyicisi" statusu verilmişdir.

**11.5. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** 2020-ci ildə pandemiya və digər xarici risklərin mövcud olmasına baxmayaraq BOKT "Embafinans" QSC mənfəətliyini qoruyub saxlamışdır.

## 12. Emitent haqqında əlavə məlumatlar

**12.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri:** Nizamnamə Kapitalının ümumi məbləği 10 000 000 (on milyon) manat həcmindədir və hər biri 1000 (bir min) manat olmaqla, 10 000 (on min) səhmdən ibarətdir.

**12.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 30.06.2020-cu il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**12.2.1. Fəaliyyət və məqsədlərin təsviri: BOKT "EMBAFİNANS" QSC** lisenziyasında qeyd edilmiş fəaliyyət növləri ilə yanaşı, həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyi iə qadağan edilməyən müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilər.

**12.2.2. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:** Ümumi yığıncağın hüquq vəzifələri, o cümlədən, direktorlar Şurasının hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ona müvafiq olaraq hazırlanmış emitentin nizamnaməsində nəzərdə tutulan müəddəalar çərçivəsində həyata keçirilir.

**12.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

# II. İstiqrazlar barədə məlumat

## 13. Əsas məlumat

**13.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toquşması barədə ətraflı məlumat:**

**Bakı Fond Birjası**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

### Mərkəzi Depozitar

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

- Bağlanılmış əqdlər üzrə klirinq və hesablaşmaların aparılması.
- Depozitar və reyestrsaxlayıcı (istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılması)
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə (əsas borc və faiz) ödənişlərin həyata keçirilməsi xidmətlərinin göstərilməsi.

### Anderrayter

“ABB-İnvest İnvestisiya şirkəti” QSC 18.09.2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır.

13.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ərtaflı məlumat:** Ölkə iqtisadiyyatının iqtisadi artım prosesinə daxil olması və reytinq agentliklərinin növbəti illər üzrə iqtisadi artım proqnozları emitentin bu prosesdə iştirakını, faydalanmasını və iqtisadiyyata töhvə verməsini şərtləndirir. Kredit məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və öz kanalları vasitəsilə əhalinin və bzines subyektlərinin kredit tələblərini təmin etmək və bazara daha rəqabətli şərtlər təqdim etmək bir kredit təşkilatı kimi bazarda öz mövqeyini qoruyub artırmağı nəzərdə tutub.

13.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək mümkün olmadığı təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin mənbələri və məbləği:** Hazırda təşkilatın resurs mənbələri xüsusi kapital (14 735 263 AZN), bank öhdəlikləri (13 969 161,51 AZN) və istiqraz öhdəlikləridir ( 1 500 000 AZN). (28.02.2021 tarixə).

13.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat**: Mövcud deyil.

## 14. İstiqrazlar barədə məlumat

14.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Qiymətli kağızlar bazarı haqqında” Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında” Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında” Qaydalar

14.2. **İstiqrazların növü:** Faizli, təminatsız, sənədsiz, adlı istiqraz;

14.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə) :** 1 500 (bir min beş yüz) ədəd, 1000 (bir min) AZN;

14.4. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN) **;**

14.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

14.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

14.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**
**_ İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**
a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;
b) İstiqrazın nominal dəyərindən illik 10.5 (on tam onda beş) faiz olmaqla istiqrazın tədavül müddəti ərzində faiz almaq;
c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
d) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

14.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi :** illik 10.5 (on tam onda beş) faiz;

14.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) təqvim ili. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən dövri olaraq hər 1 (bir) təqvim ayından bir ödəniləcəkdir. İstiqraz sahiblərinə istiqrazlar üzrə əsas məbləğin ödənişi tədavül müddətinin sonunda – ilk istiqrazın yerləşdirildiyi tarixdən 1 (bir) təqvim ili sonra həyata keçiriləcək.

14.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

14.11. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır.

14.12. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** istiqrazların yerləşdirilməsi üzrə Azər-Türk Bank ASC, istiqrazlar üzrə faizlərin və istiqrazların əsas məbləğinin ödənilməsi üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.

14.13. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** yeni emissiya edilən istiqrazlar təminatsız formada emissiya edilir.

14.14. **İstiqrazların geri satın alınmasının şərtləri:** Emitent tərəfindən istiqrazların geri satın alınması nəzərdə tutulmur.

14.15. **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası.**
İstiqrazlar üzrə faizlər İstiqrazın nominal dəyərindən hesablanır. Istiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100
burada,
TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir İstiqrazın nominal dəyəri 1 000 (bir min) AZN;
D – İstiqrazların illik gəlirlik dərəcəsi 10.5 (on tam onda beş) %;
G –İstiqrazların ödəniş dövrünün müddəti hər ay (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə)
Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 8.75 (səkkiz manat yetmiş beş qəpik) AZN təşkil edir.

**14.16. İstqirazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** BOKT "EMBAFİNANS" QSC-nin Təsisçilərinin Ümumi Yığıncağının Növbədənkənar İclasının 68 №-li, 15 mart 2021-ci il tarixli Protokolu

**14.17. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsinə heç bir məhdudiyyət qoyulmayıb..

**14.18. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericilikdə nəzərdə tutulan halda hesablaşma agenti istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutur. Fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək faiz ödənişləri üzrə ödəmə mənbəyindən vergidən azaddırlar. Hüquqi şəxslər isə hər faiz ödənişi tarixində faiz ödənişinin 10%-i həcmində ödəmə mənbəyindən vergi tutulmaqla öz faizlərini alacaqlar. İstiqrazların dövriyyədə olduğu müddətdə müvafiq qanunvericilik dəyişərsə tətbiq ediləcək vergitutma prosesi emitent və anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorlara ötürüləcəkdir.

# 15. Təklifin şərtləri

**15.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

- **Yerləşdirmənin başlanma tarixi:** yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.
- **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**15.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**
Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**15.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**15.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

**15.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən Azər-Türk Bank ASC-də açılmış hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.embafinans.az) açıqlanır.

**15.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:**

İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. Klirinq qaydalarına müvafiq olaraq, istiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədiyi istiqrazların dəyərini anderrayterin hesablaşma agenti kimi çıxış edən Azər-Türk Bank ASC -də açılmış hesabına köçürür. Emissiyadan əldə olunan vəsaitlər Emitentin bankda açılmış müvəqqəti cari hesabına köçürülür və saxlanılır, həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiyanın yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir. Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat almaq hüququna malikdir.

**15.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** potensial investorlar hüquqi şəxslər, banklar, sığorta təşkilatları, investisiya şirkətləri, rezident və qeyri rezident fiziki şəxslər ola bilər. Xarici hüquqi şəxslərin də istiqrazları alması mümkündür. Potensial investorların istiqrazlar barədə məlumatlandırılması üçün internet resurslarından və anderrayter vasitəsilə fərdi görüşlərin keçirilməsi nəzərdə tutulub. Anderrayter və emitent müraciət edən istənilən potensial investora müfəssəl məlumat verəcəkdir.

**15.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və

hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndərəcəkdir.

**15.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazlar minimal 1 000 (bir min) AZN qiymətilə təklif olunur.

**15.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

- əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- "depo" hesab açılması üçün 10 AZN;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

İstiqraz alıcısı tərəfindən istiqrazların alınması ilə bağlı vergilərin ödənilməsi nəzərdə tutulmayıb.

Fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək faiz ödənişləri üzrə ödəmə mənbəyindən vergidən azaddırlar. Hüquqi şəxslər isə hər faiz ödənişi tarixində faiz ödənişinin 10%-i həcmində ödəmə mənbəyindən vergi tutulmaqla öz faizlərini alacaqlar. İstiqrazların dövriyyədə olduğu müddətdə müvafiq qanunvericilik dəyişərsə tətbiq ediləcək vergitutma prosesi emitent və anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorlara ötürüləcəkdir.

**15.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı.**

İstiqrazlar "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürməklə yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsi nəticəsində, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-yə ümumi yərləşdirilmiş həcmin 0.5 (sıfır tam onda beş) %-i qədər komissiya haqqı təyin ediləcəkdir.
"ABB-İnvest İnvestisiya Şirkəti" QSC 18.09.2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.
Ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67
VÖEN-i: 1405161661
Telefon: +99412 4930091 ( 3093 )
Elektron poçt ünvanı: office@abbinvest.az

**15.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** BOKT "EMBAFİNANS" QSC və "ABB-İnvest İnvestisiya Şirkəti" QSC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

# 16. Ticarətə buraxılma və onun tənzimlənməsi

**16.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar haqqında məlumat və ticarətə buraxılma şərtləri:**

İstiqrazların ilkin yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə BFB-yə Emitent tərəfindən müraciət istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**16.2. Market meyker(lər) barədə məlumat:** Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə market meyker(lər) cəlb edilə bilər.

# 17. Kredit reytinqləri

**17.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri.**

Mövcüd deyil.